# İpoteka və kredit ilə ev almaq və ya təmir etmək - 7 /Jan/ 2025

**Sual: Bizim ölkədə 20 illik ipoteka krediti ilə evlər satılır. Qayda belədir ki, bank evin pulunu ödəyir, sonra 4% ilə 24 illik kreditlə şəxslərə satır. Mənim imkanım olmadığı üçün bu cür ev almaq istəyirəm. Bu cür kreditlə ev almağın hökmü nədir?**

**Cavab: Suala əsasən, bunun maneəsi yoxdur.**

**Sual: Ailənin nağd şəkildə ev almağa maddi imkanı yoxdur, ona görə də aylıq ödəniş edərək ev almaq istəyirlər. Belə ki, ipoteka ilə ev bankın əmlakına çevrilir, sonra bank aylıq 350 manat kreditlə evi şəxsə satır. Bank illik 6% ilə krediti hesablayır. İpoteka ilə ev almaq icazəlidirmi?**

**Cavab: Suala əsasən, bunun maneəsi yoxdur.**

**Sual: Ailə tərkibimiz üç nəfərdən ibarətdir. Atam bir ildən çoxdur ki, rəhmətə gedib və ata evimiz əlimizdən alınıb. Hal-hazırda qaldığımız ev anamın atasınındır və bu evdə dayım da qalır. Biz orada daimi yaşaya bilmərik, ona görə də ev almaq istəyirik. Ev almaq üçün əlimizdə nağd pul çox azdır. Biz pul krediti götürüb ev ala bilərikmi?**

**Cavab: Ribalı borc (faizli pul krediti) götürmək haramdır, yəni ribalı borc götürən şəxs günah edir. Amma o, borc (ya kredit) götürdüyü pulun sahibi olur. Bu şəxs harama düşməmək üçün artıq məbləği verməyi niyyət etməyə bilər, baxmayaraq ki, bu məbləği ondan alacaqlarını bilir. Əlbəttə, əgər alınan əlavə məbləğ inflyasiya və pulun dəyərdən düşməsi miqdarından çox olmazsa, bu, riba sayılmır və onu ödəmək haram deyildir.**

**Sual: Bir mömin oğlan ev tikdirir və evlənmək istəyir, amma pulu qurtarıb və ev yarımçıq qalıb. Evi tamamlamaq üçün təxminən ümumi məbləğin 20%-ni kredit götürə bilərmi?**

**Cavab: Ribalı borc (faizli pul krediti) götürmək haramdır, yəni ribalı borc götürən şəxs günah edir. Amma o, borc (ya kredit) götürdüyü pulun sahibi olur. Bu şəxs harama düşməmək üçün artıq məbləği verməyi niyyət etməyə bilər, baxmayaraq ki, bu məbləği ondan alacaqlarını bilir. Əlbəttə, əgər alınan əlavə məbləğ inflyasiya və pulun dəyərdən düşməsi miqdarından çox olmazsa, bu, riba sayılmır və onu ödəmək haram deyildir.**

**Sual: Bankdan pul krediti götürüb evi təmir etdirmək olarmı?**

**Cavab: Ribalı borc (faizli pul krediti) götürmək haramdır, yəni ribalı borc götürən şəxs günah edir. Amma o, borc (ya kredit) götürdüyü pulun sahibi olur. Bu şəxs harama düşməmək üçün artıq məbləği verməyi niyyət etməyə bilər, baxmayaraq ki, bu məbləği ondan alacaqlarını bilir. Əlbəttə, əgər alınan əlavə məbləğ inflyasiya və pulun dəyərdən düşməsi miqdarından çox olmazsa, bu, riba sayılmır və onu ödəmək haram deyildir.**

**Sual: Daimi yaşayış üçün evim olduğu halda özümə bağ evi tikdirmişəm. Bu bağ evinin daxilini təmir etdirmək üçün ölkədaxili banklardan faiz ilə pul götürə bilərəmmi?**

**Cavab: Ribalı borc (faizli pul krediti) götürmək haramdır, yəni ribalı borc götürən şəxs günah edir. Amma o, borc (ya kredit) götürdüyü pulun sahibi olur. Bu şəxs harama düşməmək üçün artıq məbləği verməyi niyyət etməyə bilər, baxmayaraq ki, bu məbləği ondan alacaqlarını bilir. Əlbəttə, əgər alınan əlavə məbləğ inflyasiya və pulun dəyərdən düşməsi miqdarından çox olmazsa, bu, riba sayılmır və onu ödəmək haram deyildir.**

**Kreditlə avtomobil almaq**

**Sual: Kredit ilə hansısa bir əşya almağın, məsələn, avtomobil almağın hökmü nədir? Belə ki, dükan bank ilə iş görür. Əslində bank bütün məbləği alıcıya verir və onunla müqavilə bağlayır və aylıq ödəniş təyin olunur. Alıcı pulu götürüb dükandan öz istədiyi malı alır, pulu isə hər ay banka ödəyir. Bu halda bankdan götürülən pul və banka ödənilən əlavə məbləğ sələm sayılırmı və haramdırmı?**

**Cavab: Əgər bank ilə bağlanılan müqavilə borc müqaviləsi olarsa, inflyasiya miqdarından çox olan əlavə məbləğin ödənilməsinin şərt qoyulması ribadır və haramdır. Amma əgər alğı-satqı şəri müqavilələrdən biri əsasında, məsələn, kredit və ya şəriklik müqaviləsi əsasında baş tutarsa, bunun iradı yoxdur. Yəni bankın özü və ya siz bankın vəkili ünvanında avtomobili alırsınız, bank da avtomobili sizə onun nağd qiymətindən baha qiymətə satır.**

**Sual: Mən özümə avtomobil almaq istəyirəm, lakin mənim əlimdə olan pul avtomobili almağa yetmir. Belə bir xidmət var ki, avtomobilin qiymətinin bir hissəsini ödəyirsən, qalan məbləği banka kreditə salıb ödəyirsən. Bu halda bank avtomobilin qalan məbləğini ödəyir, avtomobil mənim olur. Sonra bank ödədiyi məbləğin üstünə müəyyən qədər faiz qoyaraq, onu məndən aylıq alır. Mən bu şəkildə özümə avtomobil ala bilərəm?**

**Cavab: Əgər borc (pul krediti) müqaviləsinə əsasən, ödənilən artıq məbləğ inflyasiya miqdarından çox olmazsa, bu artıq məbləği ödəməyin maneəsi yoxdur. Əks halda, buna icazə verilmir. Amma əgər kredit bu şəkildə olsa ki, bank avtomobili sizinlə şərikli olaraq alır və öz payına düşən hissəni nisyə və ya kredit hissələri şəklində bir qədər yuxarı qiymətə sizə satır, bunun maneəsi yoxdur.**

**Malın nağd qiymәti ilә nisyә qiymәti arasındakı qiymәt fәrqi riba sayılmır.**

**Sual: Müәyyәn mәblәğdә avtomobil almaq istәyirik, amma pulumuzun bir hissәsi çatmır. Hәmin avtomobili lizinq yolu ilә әldә etmәk olar? Әgәr avtomobil lizinq yolu ilә alınıbsa, hökmü nәdir?**

**Cavab: Müxtәlif surәtlәr mövcuddur. Ümumiyyәtlә, әgәr alıcı vә satıcı arasında bağlanan müqavilә islami müqavilәlәrdәn biri qәlibindә olarsa, bunun öz-özlüyündә maneәsi yoxdur.**

**Sual: Kreditlә ev, avtomobil vә başqa әşyalar almaq icazәlidirmi? Mәsәlәn, әşyanın nağd qiymәti 100 manatdır, amma kreditlә 12 aya 124 manata satılır. Bu isә aylıq 2% әlavә ödәniş demәkdir. Belә bir alğı-satqı icazәlidirmi?**

**Cavab: Ümumiyyәtlә, malın nisyә şәklindә vә ya kreditlә onun nağd qiymәtindәn baha qiymәtә satılıb-alınmasının maneәsi yoxdur. Nağd ilә nisyә arasındakı qiymәt fәrqi riba sayılmır. Amma hәm ödәnişin müddәti, hәm dә kreditlәrin sayı vә mәblәği tam aydın olmalıdır.**

**Müalicә üçün bankdan pul krediti götürmәk**

**Sual: Sәhhәtimlә bağlı әmәliyyat olunmalıyam. Mәnim maşınım vә evim dә var. Әmәliyyat üçün pul krediti götürә bilәrәmmi?**

**Cavab: Ribalı borc (faizli pul krediti) götürmәk haramdır, yәni ribalı borc götürәn şәxs günah edir. Amma o, borc (ya kredit) götürdüyü pulun sahibi olur. Bu şәxs harama düşmәmәk üçün artıq mәblәği vermәyi niyyәt etmәyә bilәr, baxmayaraq ki, bu mәblәği ondan alacaqlarını bilir. Әlbәttә, әgәr alınan әlavә mәblәğ inflyasiya vә pulun dәyәrdәn düşmәsi miqdarından çox olmazsa, bu, riba sayılmır vә onu ödәmәk haram deyildir.**

**Mobil nömrәyә kredit balans götürmәk**

**Sual: Bizdә mobil telefon operatorları abunәçinin danışıq balansı bitdiyi zaman ona kredit balans verir. Abunәçi danışıq balansını artırdıqda kredit mәblәği ilә yanaşı, bu xidmәtdәn istifadә etdiyinә görә müәyyәn mәblәğ xidmәt haqqı da abunәçinin hesab balansından çıxılır. Mәsәlәn, 2 manat kredit balans götürürәm, hesabımı artırdığım zaman 3 manat hesabımdan çıxılır. Yәni bu xidmәtdәn istifadә etdiyimә görә 1 manat pul çıxılır. Mәnim bu kreditdәn istifadә etmәyim icazәlidirmi?**

**Cavab: Maneәsi yoxdur.**